DOI: https://doi.org/10.36719/2663-4619/92/30-35

Nurlana Qənbərova
Bakı Slavyan Universiteti
doktorant
nurlana.guliyeva1986@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ CAVAB AKTINDA İŞLƏNƏN NİTQ FEİLLƏRİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalə cavab aktında işlənən nitq feillərininin semantik xüsusiyyətlərinə həsr olunur. Nitq feilləri dildə sayca azlıq təşkil etsələr də onların tədqiq edilməsinin əhəmiyyəti böyükdür. Çünki cavab prosesində işlənən nitq feillərindən dialoqlarda geniş istifadə olunur. Məqalədə cavab prosesində işlənən nitq feillərininin struktur-semantik xüsusiyyətlərinə nəzər yetirilir, onların məna rəngarəngliyi, müəyyən bir kontekstdə işlədildikdə ifadə etdiyi məna çalarlarının müxtəlifliyi aydın göstərilir. Onların ifadə etdikləri bu məzmun zənginliyini daha aydın göstərmək üçün eyni leksik semaya malik olsalar da, hər bir feilin semantikası ayrı ayrılıqda daha dəqiqliklə tədqiq edilir. Həmçinin bədii ədəbiyyatda bu feillərdən necə istifadə olunduğuna nəzər salınır və nümunələr verilir. Beləliklə cavab prosesində işlənən nitq feillərininin nitqi xarakterizə etmək baxımından dildə çox böyük əhəmiyyətə malik olub, tez-tez istifadə olunması qənaətinə gəlinir. Nitq feillərinin bir yarımqrupu olan cavab aktında işlənən nitq feillərinin semantikasının belə geniş şəkildə açılması bu işin elmi yeniliyinin göstəricisidir.

Açar sözlər: *semantik xüsusiyyətlər, cavab aktı, nitq feilləri, məna, nitq prosesi*

Nurlana Ganbarova
Baku Slavic University
Ph.D student
nurlana.guliyeva1986@gmail.com

Semantic properties of speech verbs used in the act of response in Modern English

Abstract

The article is devoted to the semantic characteristics of speech verbs used in the response act. Although speech verbs are a minority in the language, their study is of great importance. The speech verbs used in the response process are widely used in dialogues. The article examines not only the structural-semantic features of the speech verbs used in the response act, but also their different meanings, and the variety of shades of meaning they express when used in a certain context. Though they have more or less the same lexical meaning, a thorough and precise semantic analysis of each verb is given separately. It also looks at how these verbs are used in fiction and a great many examples are given. Thus, we can conclude that the speech verbs used in the response process are very crucial in the language in terms of characterizing the speech

Keywords: *semantic features, response act, speech verbs, meaning, speech process*

Giriş

Semantik aspekt dilçilər tərəfindən həmişə qrammatikanin əsas sahəsi kimi tədqiq edilmişdir. Dilə materialist mövqedən yanaşma semantikaya həddən artiq marağın yaranmasına səbəb olmuş və beləliklə XXI əsr semantika əsri hesab olunmuşdur. Semantikanın problemlərinin tədqiq olunmasının digər elmlərin də inkişafına təkan verməsi bütün dil vahidlərinin, eləcə də, cümlənin semantik və sintaktik "taleyini" həll edən, dilin alt və üst strukturunu müəyyən edən əsas nitq hissəsi olan feilin semantikasının tədqiq edilməsini daha da aktual etmişdir. Lakin burada bir məqam var ki, feilin semantik təsnifatını verərkən feillər leksik-semantik qruplara bölünmədən küll

halda tədqiq edilmiş və dildəki sistemlilik gözardı edilmişdir. Feilin semantik qruplarından olan nitq feillərinin bir yarımqrupu olan cavab aktında işlənən nitq feillərinin semantikasının açılması bu işin elmi yeniliyinin göstəricisidir. Nitq prosesində hər hansı bir suala, fikrə cavab verib münasibət bildirərkən istifadə edilən bu feillərin ayrıca bir yarımqrup şəklində təhlil olunması onların ifadə etdikləri bütün mənaların və həmçinin bu feillərin iştirakı ilə yaranan frazeoloji birləşmələrin də sistemli şəkildə göstərilməsinə imkan yaratmışdır. Nitq prosesini xarakterizə edən və dilçilik ədəbiyyatında nitq felləri adlı leksik semantik qrupda cəmləşən və təfəkkür prosesi ilə bağlı olan hərəkətləri ifadə edən nitq feilləri dildə kəmiyyətcə az olsalar da, öz səciyyəvi xüsusiyyətləri və müxtəlif məna çalarları ilə və ən əsası ekspressivliyin ifadəsinə görə ən zəngin qrup olmasıyla digər feil qruplarından fərqlənir və nitqi xarakterizə etmək baxımından dildə çox böyük əhəmiyyətə malik olub, tez-tez istifadə olunurlar. Çünki nitq insanın daxili aləmiylə əlaqəli olub onun emosional vəziyyətinin, davranışının, ətafındakı digər insanlara və ya ətraf mühitə olan münasibətinin ifadə olunmasının yollarından ən başlıcasıdır (Vəliyeva, 1999: 16).

İnsan dil tələbatını nitq vasitəsiylə ödəyir. A.Qurbanov nitqin bir neçə vəzifəsinin olduğunu yazır: 1) nitq prosesində əşyalar, hal-hərəkət, vəziyyət, şərait, zaman və s. konkret adlandırılır; 2) nitq prosesində sözlər vasitəsiylə ümumiləşdirmə aparılır; 3) nitq prosesi kommunikasiyaya (ünsiyyətə) xidmət edir (Qurbanov, 2004: 47). Onun fikrinə görə, nitq insan danışığının cəmidir. Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyətin yaradıcısıdır və nitq prosesinin 3 əsas ünsürü mövcuddur: 1) danışmaq; 2) eşitmək; 3) dərk etmək (Qurbanov, 2004: 51).

Nitq prosesinin tərkib hissəsi olan "danışmaq" nitq feilləri vasitəsilə gerçəkləşir. Nitq feilləri nitqi müxtəlif aspektlərdən xarakterizə edir, onlardan bəziləri nitqin xarakterini və ya tərzini səciyyələndirdiyi halda, böyük bir hissəsi isə söyləmin formasını göstərir və nitqin obyektini adlandırır.

Feillərin ifadə etdikləri hal vəziyyət və ya hərəkət onların leksik mənalarında öz əksini taparaq fərdi və psixi olan müəyyən bir nitq aktı ilə gerçəkləşir (Rəcəbli, 2003: 58).

İctimai münasibətlər sistemi ilə şərtlənən şəxsiyyətlərarası qarşılıqlı əməkdaşlıq ictimai əlaqələrin mövcudluğunun üsulu olan ünsiyyəti dialoqlarsız təsəvvür etmək imkansızdır, çünki nitq başqaları ilə dialoqa girərkən gerçəkləşir və biz bu yolla hər hansı bir hadisə və ya insan haqqında soruşaraq məlumat ala bilər və ya bildiyimiz məlumatı qarşı tərəfə ötürə bilərik. Başqa sözlə desək, nitq iki nəfər arasında gerçəkləşən bir-birinin əksi olan sual və cavab aktından ibarətdir. Sual aktı daha əvvəl gəlib hər hansı bir informasiyanı almaq məqsədiylə işlədilir, cavab aktı isə sual aktını izləyib onu lazımi məlumatla təmin etməyə xidmət edir. Beləliklə də, nə qədər tez-tez məlumat almaq məqsədli dialoqlardan istifadə etsək, sual-cavab prosesində işlənən nitq feillərinin işlənmə dairəsi də bir o qədər genişlənir. Ingilis dilində ən geniş işlənmə dairəsinə malik olan cavab aktında işlənən nitq feillərinə aşağıdakı nitq feillərini nümunə göstərə bilərik: *to answer, to respond, to reply, to retort, to rejoin, to react.*

Cavab prosesində işlənən nitq feillərininin semantikası əsasən "cavab vermək" feilində əks olunsa da, danışıq prosesi ilə əlaqəli olan məna çalarları müxtəlif feillərlə ifadə edilə bilir. Bu nitq feillərin ifadə etdikləri əsas məna ilə yanaşı, başqa mənalar da bildirir. Hər hansı bir dil inkişaf edərkən həmin dildəki sözlər semantik dəyişikliyə uğrayır, yəni onlar yeni mənalar kəsb edir, onların əvvəlki leksik mənaları dəyişir, sözlərin malik olduğu bəzi mənalar isə köhnəldiyi üçün dildə artıq istifadə edilmir (Cəfərov, 1970: 16). Bu fikrə əsaslanıb deyə bilərik ki, dil inkişaf etdikcə sözlər öz müstəqim mənaları ilə yanaşı bir sıra törəmə mənalar qazana bilir.

C.Layonsa, görə, sözlərin mənaları elə dilin özünə aiddir və məna dildənxaric dünyaya aid olmur, çünki dil özündən xaricdə baş verənlərin sadəcə dildəki təzahürü ilə məşğul olur (Lyons, 1995: 176).

Sözlərin mənalarını geniş şəkildə tədqiq edən dilçilərdən F.Veysəlli yazır ki, ənənəvi dilçilik sözlərin mənalarına əsaslanaraq onları *antonim, sinonim, çoxmənalı* və *omonim* siniflərinə bölür (Veysəlli, 2013: 205). Anomalistlərin iddiasına əsasən, əgər dildə forma ilə məna arasında birin-birə münasibəti varsa, yəni bir forma sadəcə bir məna ifadə edərsə, bu zaman dil ideal hesab edilə bilər. Lakin F.Veysəlli əsaslandırır ki, 1 forma=1 məna formuluna uyğun gələn dil mövcud deyildir

(Veysəlli, 2013: 207). Məsələn, ingilis dilində /to tell - to say/ (demək, söyləmək) feilləri eyni və ya oxşar mənaları ifadə edir və belə sözlər dilçilik ədəbiyyatında sinonim sözlər kimi qəbul edilir. Bəzən bunun əksi də ola bilir, yəni bir söz bir neçə məna ifadə edə bilir və belə sözlər omonim sözlər kimi qəbul edilir. Buna misal olaraq, "to lie" (uzanmaq; yalan danışmaq) feilini göstərə bilərik.

Söz formaları ilə onların mənaları arasında əkslik varsa, onlar antonimlər kimi qəbul edilir. Məsələn, /to begin-to end/ (başlamaq – sona çatmaq).

Dildə antonimlərin və sinonimlərin işlədilməsi, dilin daha çox zənginləşməsinə, yaxud rəngarəng olmasına şərait yaradır.

S.Cəfərova görə, polisemantizm nitq hissələri arasında ən çox feillərdə özünü büruzə verir və o, feili başqa dillərin təsiri altına düşməyən kateqoriya kimi səciyyələndirir (Cəfərov, 1970: 175).

Cavab prosesində işlənən nitq feillərininin struktur-semantik xüsusiyyətlərinə nəzər yetirsək onların məna rəngarəngliyini, müəyyən bir kontekstdə işlədildikdə ifadə etdiyi məna çalarlarının müxtəlifliyini aydın görürük. Onların ifadə etdikləri bu məzmun zənginliyini daha aydın göstərmək üçün eyni leksik semaya malik olsalar da, hər bir feilin semantikasını ayrı ayrılıqda daha dəqiqliklə tədqiq etmək daha məqsədə uyğundur. *"To answer"* feili dialoqlar zamanı məlumat almaq məqsədilə verilən suallara yazılı və ya şifahi şəkildə cavab vermək mənasını ifadə edən sadə quruluşlu və qaydalı nitq feilidir. Cavab vermək onun ifadə etdiyi əsas məna olsa da,dildəki çoxmənalılıq hesabına bir çox basqa mənaları da ifadə edir.Ona görə də onun semantikası müasir ingilis dilində əhəmiyyətli yer tutur. Zəngin semantikası hesabına müxtəlif mənaları ifadə edən feillərlə sinonimlik təşkil edir. *"to answer"* feilinin sinonimlərinə *to reply, to respond, to satisfy, to retort,to field, to rebut, to react, to fulfill, to match, to suffice* və s. Onun antonimlərinə *isə to ask, to inquiry, to question, to interrogate* və s. misal göstərmək olar. Müasir ingilis dilində *"to answer"* feilinin semantikası belə müəyyən edilir (Vəliyeva, 2017: 172; Hacıyeva, Hacıyeva, Eyvazova, 2006: 31; 9; 10; 11):

1. cavab vermək(suala, məktuba və s.); Bu mənanı ifadə edərkən *"to answer"* feili tamamlıq ilə və ya tamamlıq olmadan, budaq cümlə ilə və ya vasitəsiz nitq ilə işlənə bilir.

to answer instantly\frankly\ironically-dərhal\açıq\kinayə ilə cavab vermək

to answer a call-zəngə cavab vermək;haraya\çağırışacavab vermək

to answer blows with blows-zərbəyə zərbə ilə cavab vermək

I warn you beforehand that I will not answer any questions relating to my son.-Mən əvvəlcədən sizə xəbərdarlıq edirəm ki, oğlumla əlaqəli suallara cavab verməyəcəm. "Asurgeon", answered Benjamin, with great gravity, "is a profession, not a trade." - "Cərrahlıq sənətdir, ticarət deyil" Benjamin ciddi bir şəkildə cavab verdi (Fielding, 2016: 78).

2. müvafiq olmaq; doğrultmaq; to answer hopes-ümidləri doğrultmaq to answer to the purpose-məqsədə müvafiq olmaq

3. müvəffəq olmaq; baş tutmaq; The plan has not answered.-plan baş tutmadı.

4. yerinə yetirmək, ödəmək; to answer orders - sifarişləri yerinə yetirmək to answer demands\obligations - tələbləri\öhdəlikləri yerinə yetirmək to answer debts - borcları ödəmək

5. zamin durmaq; məsuliyyət daşımaq; Bu zaman *to answer feili* "for" sözönü ilə işlənir. to answer for smb.- kiməsə zamin durmaq; to answer for smb's honesty-kiminsə düzlüyünə zamin olmaq to answer for one's wrongdoings-öz pis əməllərinə görə məsuliyyət daşımaq. And I will answer for you, that you were afraid. - Mən sənə görə məsuliyyət daşıyacam, çünki sən qorxaq idin (London, 2011: 178).

6. qarşılamaq; qane etmək; təmin etmək. Often I do use three words where one would answer.- Mən tez-tez bir sözün kifayət etdiyi yerdə 3 kəlimə işlədirəm. I've got some furniture in the attic that might answer your needs-Çardaqda sənin ehtiyaclarını qarşılayacaq bir az mebelim var.

7. uyğun gəlmək; A woman who answers to the suspect's description was seen in the area on the night of the crime. - Şübhəlinin təsvirinə uyğun gələn cinayət gecəsi ərazidə görülüb.

8. qarşılıq vermək; The soldiers answered the attack-Əsgərlər hücuma qarşılıq verdilər.

9. müdafiə etmək; “The defendant answered to all the charges of the prosecution” - “Müttəhim cinayət təqibinin bütün ittihamlarından özünü müdafiə etdi. Take consolation in the fact that no member of your class has ever yet answered that charge – Özünə təsəlli ver ki, sinifdən heç kim hələ ittihamlara qarşı özünü müdafiə etməyib (London, 2011: 178).

10. to answer feili “back” sözönü ilə birgə işlənərək *cavab qaytarmaq, kobud cavab vermək, ədəbsizlik etmək* mənalarını ifadə edir. If people abuse them, they are not to answer back.-Əgər insanlar onları söysələr də, onlar cavab qaytarmamalıdırlar.

Don't answer back, girl. - Ədəbsizlik etmə, qız (Bernard, 2018: 25)!

11. kəfarət vermək; hesab vermək; He must be made to answer for his terrible crimes. - O, dəhşətli cinayətlərinin hesabını verməyə vadar olunmalıdır. *“To respond”feili* məlumat almaq məqsədiylə verilmiş sualları izləyən cavab aktında işlənən nitq feillərindən biri olub, semantikasının əsasını hər hansı bir fikrə yazılı və ya şifahi formada cavab vermək təşkil edir. Müasir ingilis dilində dialoqlar zamanı cavab vermək, nəyəsə reaksiya vermək mənasını ifadə edən bu sadə quruluşlu nitq feili sinonim və antonim cəhətdən zəngin olan feillərdəndir.İfadə etdiyi məna rəngarəngliyinin də burada rolu çox əhəmiyyətlidir. Sinonimlərinə əsasən *to answer, to rejoin, to react,to reply, to retort, to return,to riposte və s.* antonimlərinə isə *to ask, to inquiry, to question, to interrogate və s.* misal göstərə bilərik. Müasir ingilis dili lüğətlərində “to respond “ feilinin aşağıdakı mənaları göstərilir (9; 10; 11):

1. Cavab vermək; Bu mənada işlənərkən *“to respond”* feili tamamlıq ilə və ya tamamlıqsız, that bağlayıcılı budaq cümlə və vasitəsiz nitq ilə də işlənə bilir. ‘They could not get him to respond to their words’ - Onlar onu cavab verməyə vadar edə bilmədilər. ‘The minister responded that it would be possible’ - Nazir bunun mümkün olacağını cavablandırdı. ‘It's not my duty’, the doctor responded-“bu mənim vəzifəm deyil”-həkim cavab verdi. "Nay", responded Robin waving his hands, "you are from the King”. - “Xeyr, sən kraldansan”. Robin əllərini yelləyərək cavab verdi. I did, indeed', responded Bob Sawyer, 'and I was just going to say that I wasn't at home, - “Mən həqiqətən bunu etdim və mən evdə olmadığımi deyəcəkdim”. Bob Soyer cavab verdi (Dickens, 2014: 221).

2. Reaksiya vermək; baxmaq; Bu mənada işlənərkən “to respond” feili adətən *to sözönü* ilə işlədilir; *to respond to kindness*- xoş münasibətə reaksiya vermək; The police responded right away to the riot call. - Üsyan çağırışına polislər dərhal reaksiya verdilər.

But whenever one of the songs he had learned from Steward was played, he responded. - Ancaq nə vaxt olur olsun onun Stevarddan öyrəndiyi mahnılardan biri ifa olunurdusa o reaksiya verirdi (Jack, 2010: 134).

To sights and sounds and events which required action, he responded with lightning-like rapidity-Hərəkət lazım olan səslərə, görüntüyə və hadisələrə o, ildırım surətiylə reaksiya verirdi (Jack, 2015: 96).

3. Hüq.məsuliyyət daşımaq; iddia üzrə şikayət vermək;ödəmək, yerini doldurmaq (xərcin və s.)

4. Qarşılıq vermək;

It was the first kiss of her life to which her nature had really responded.-Bu onun təbiətinin qarşılıq verdiyi həyatının ilk öpüşü idi. My hand was on my friend's arm, but she failed for the moment, confronted with such an account of the matter, to respond to my pressure. - Əlim dostumun qolunda idi, lakin o belə bir məsələ ilə qarşılaşdığı üçün mənim təzyiqimə qarşılıq vermədi.

5. Yaxşı nəticələnmək;

6. Uyğun olmaq; His illness did not respond to treatment. - Onun xəstəliyi müalicəyə uyğunlaşmırdı. *“To reply”feili* müasir ingilis dilində hər hansı bir fikrə yazılı və ya şifahi cavab verərkən ən çox istifadə edilən nitq feillərindən biridir. Morfoloji quruluşuna görə sadə olub, qaydalı feildir. *“To* reply” feilinin semantikası dedikdə nəyəsə və ya kiməsə cavab vermək, qarşılıq vermək nəzərdə tutulur. Semantik cəhətdən özünə yaxın olan to answer, to respond, to come back, to write back, to retort, to riposte, to counter və s. kimi feillərlə sinonim olur, ona əks olan soruşmaq, məlumat almaq mənalarını ifadə edən to ask, to inquiry, to question, to interrogate və s.

kimi feillərlə isə antonim olur. *"To reply"feilinin* ifadə etdiyi mənalar ingilis dili lüğətlərində belə göstərilir (9; 10; 11).

7. Cavab vermək; *"to reply"* feili həm də vasitəsiz nitq ilə və ya "that" bağlayıcısı ilə bağlanan tamamlıq budaq cümləsi ilə də işlənə bilir. Adətən *"to reply"*feilindən sonra tamamlıq gələrsə "to" və ya "with" sözönü ilə işlədilir. To reply to smth.\smb.-nəyəsə\kiməsə cavab vermək to reply for smb. - kiminsə əvəzinə cavab vermək

(Love and Friendship by Austen, Jane) "I am certain there is somebody knocking at the Door". (said my Mother.) "I think there must", (replied my Father) - "Mən əminəm ki qapını kimsə taqqıldadır" Anam dedi. "Mən də olduğunu düşünürəm" Atam cavab verdi.

"I am bound by my vow to do so", replied the knight (Ivanhoe walter scot) - "Mən belə etməyə söz vermişəm" cəngavər cavab verdi. "Something in the yard", replied the stranger. - "Həyətdə nəsə", qərib cavab Verdi (Dickens, 2014: 57).

1. Qarşılıq vermək; to reply to enemy's fire-düşmən atəşinə qarşılıq vermək. The voters replied by voting 80% in favour. - Seçicilər 80% lehinə səs verərək qarşılıq verdilər.

2. Əks-səda vermək

3. Müttəhimin tələbinə cavab vermək; *"to retort" feili* adətən kiməsə tələsik və ya sərt cavab verərkən işlənənən sadə quruluşlu və qaydalı nitq feilidir. Cavab aktında istifadə edilən digər nitq feilləri, yəni sinonimləri ilə *(to answer, to respond, to reply və s.)* semantik cəhətdən yaxın olsalar da, onun semantikasında əsas yeri kiməsə *düşünmədən tələsik cavab vermək, kəskin bir tərzdə qarşılıq vermək* tutur və ona görə də praqmatik cəhətdən sinonimlərindən seçilir. Danışıq aktı zamanı müxtəlif situasiyalarda o, *to answer, to respond,to come back, to write back, to retort, to riposte, to counter* kimi nitq feilləri ilə sinonim ola bilir. Onun antonimləri isə sual aktında geniş şəkildə istifadə edilən aşağıdakı feillərdir: *to ask, to inquiry, to question, to interrogate və* s. Müasir ingilis dili lüğətlərində *"to retort" feili*nin mənaları belə ifadə olunur (9; 10; 11).

1. Sərt, tələsik cavab vermək; "Nay," retorted Robin, "he is naught but a ladies' man from court. "Xeyr", Robin cavab verdi "O qadınların saray kişisindən başqa heç bir şey deyil. Perhaps, the best civility, whatever kind of people we are brought up among', retorts Edwin Drood, 'is to mind our own business. - "Ola bilsin ki, necə insanların arasında tərbiyə olunuruqsa olaq, ən böyük mərifət öz işimizlə məşğul olmaqdır". Edvin Drud cavab verdi.

2. Qarşılıq vermək; kobudluğa kobudluqla cavab vermək;

3. Replika atmaq;

4. Təkzib etmək; yalana çıxartmaq; *to retort a charge* - ittihamı təkzib etmək; *"To react" feili* quruluşca sadə, qaydalı nitq feillərindən biri olub müəyyən bir situasiyada kiməsə və ya nəyəsə sözlərlə və hərəkətlərlə cavab vermək mənasını ifadə edir. Müxtəlif kontekstlərdə o həm də təsir etmək, müqavimət göstərmək mənalarını da ifadə edə bilir və *to answer, to respond, to come back, to write back, to retort, to riposte,to counter* kimi feillərə sinonim hesab edilir. Müasir lüğətlərdə aşağıdakı mənaları göstərilir (9; 10; 11):

1. reaksiya\cavab vermək; The employee reacted angrily to the news of his dismissal-İşçi işdən çıxarılma xəbərinə acıqla reaksiya verdi. How do you think she'll react when she hears the news?-Səncə o xəbəri eşidəndə nə reaksiya verəcək? The State Department reacted favorably to the proposal - Dövlət departamenti təklifə müsbət cavab verdi.

2. təsir göstərmək; təsirlənmək; Bu mənanı ifadə edərkən "to react" feili adətən "on", "upon" sözönüləri ilə işlədilir. To react upon each other - bir-birinə təsir etmək; And thus ever by day and night, under the sun and under the stars, climbing the dusty hills and toiling along the weary plains, journeying by land and journeying by sea, coming and going so strangely, to meet and to act and react on one another, move all we restless travellers through the pilgrimage of life. - Və beləcə gecə və gündüz, günəşin və ulduzların altında, tozlu təpələrə dırmanaraq və yorucu düzənliklərdə əlləşərək,quruda və suda səyahət edərək, qəribə şəkildə gedib gələrək, bir biriylə görüşüb qarşılıqlı təsirlənərək biz biqərar səyahətçilər Həcc ziyarətimizi edirik.

We should react on each other.-biz bir-birimizə təsir göstərməliyik. Her cleanness and purity had reacted upon him,... - Onun təmizliyi və saflığı ona təsir edib...

3. əks təsir\müqavimət göstərmək, mane olmaq; bu zaman "to react" feili against sözönü ilə birgə istifadə edilir. *To react against opposition* - müxalifətə əks təsir göstərmək; to react environment - şəraitin təsirinə müqavimət göstərmək; I tried to react against this vague feeling. - Mən bu qeyri müəyyən hissə müqavimət göstərməyə çalışdım.

He remembered very vividly the violence of the emotion which had possessed him and his inability, as if he were tied down to the ground with ropes, to react against it. - O, onu bürümüş hisslərin şiddətini, sanki yerə iplə bağlanıb ona müqavimət göstərə bilməməsini aydın xatırladı. I was afraid that you would react against Paul until you went over the verge. - Mən sənin sərhədi keçənə kimi Paula qarşı çıxacağından qorxurdum.

4. reaksiyaya girmək (kimya); The sulphur in the coal reacts with the limestone during combustion. - Kömürdəki kükürd yanma zamanı əhəng daşı ilə reaksiyaya girir.

5. qalxıb enmək (birja bazarında) 'the shares reacted to 222p before rallying to 228 p. - Səhmlər 228 p-yə qalxandan sonra 222-yə düşdü.

Beləliklə, tədqiqat işində cavab prosesində işlənən nitq feillərinin ayrı- ayrılıqda ifadə etdikləri mənalar təhlil olunmuş, bədii ədəbiyyatda bu feillərdən necə istifadə olunduğuna nəzər salınmış və dildə onların sayca az olmasına baxmayaraq nitqi xarakterizə etmək baxımından dildə çox böyük əhəmiyyətə malik olub, tez-tez istifadə olunması qənaətinə gəlinmişdir.

Nəticə

Tədqiqat işində cavab prosesində işlənən nitq feillərinin ayrı-ayrılıqda ifadə etdikləri mənalar təhlil olunmuş, bədii ədəbiyyatda bu feillərdən necə istifadə olunduğuna nəzər salınmış və dildə onların sayca az olmasına baxmayaraq nitqi xarakterizə etmək baxımından dildə çox böyük əhəmiyyətə malik olub, tez-tez istifadə olunması qənaətinə gəlinmişdir.

Ədəbiyyat

1. Vəliyeva, N. (1999). Müxtəlif sistemli dillərdə nitq və təfəkkür feilləri ilə formalaşan frazeoloji vahidlər. Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin mətbəəsi, 104 s.
2. Qurbanov, A. (2004). Ümumi Dilçilik: [2 cilddə] Bakı: Nurlan, 532 s.
3. Rəcəbli, Ə. (2003). Nəzəri dilçilik. Bakı: "Nurlan", 515 s.
4. Cəfərov, S. (1970). Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif, 234 s.
5. Lyons, J. (1995). Linguistic Semantics. Cambridge University Press, 376 p.
6. Veysəlli, F. (2013). Dilçiliyin əsasları. Bakı: Mütərcim, 420 s.
7. Vəliyeva, N. (2017). Azərbaycanca-ingiliscə idiomatik lüğət. Bakı: Mütərcim, 764 s.
8. Hacıyeva, Ə., Hacıyeva, A., Eyvazova, V. (2006). İngiliscə-azərbaycanca frazeoloji lüğət. Bakı: "Nurlan", 368 s.
9. https://en.oxforddictionaries.com/
10. https://dictionary.cambridge.org/
11. https://www.collinsdictionary.com/dictionary/english
12. Fielding, H. (2016). The History of Tom Jones. USA: CreateSpace Independent Publishing Platform, 262 p.
13. London, J. (2011). The Iron Heel. London: Empire Books, 264 p.
14. Bernard, G. (2018). Pygmalion by Shaw. USA: CreateSpace Independent Publishing Platform, 76 p.
15. Dickens, Ch. (2014). The Posthumous Papers Of The Pickwick Club. Create Space Independent Publishing Platform, 428 p.
16. Jack, L. (2010). Michael, Brother of Jerry. USA: Nabu Press, 392 p
17. Jack, L. (2015). The Call of the Wild. USA: CreateSpace Independent Publishing Platform, 102 p.

Göndərilib: 03.04.2023 Qəbul edilib: 12.06.2023